# Azərbaycanda relyef sənətinin inkişaf mərhələləri

***Azərbaycanın relyef sənəti öz kökləri etibarilə qədim xalq ənənələri ilə bağlı olmuşdur. Bizə qədər gəlib çatmış relyef nümunələrinin tarixi olduqca dərindir. Azərbaycan xalqının qədim mədəniyyətini, o cümlədən relyef sənətini öyrənmək baxımından Qobustan qayaüstü rəsmlərini nəzərdən keçirmək olduqca məqsədəuyğundur.***

Relyef sənətinin tarixi Azərbaycanda daş dövrünə - mezolitə təsadüf edilir ki, bunun da ən bariz nümunələrinə Qobustan qayaüstü təsvirlərində rast gəlirik.

Burada təsvirlərin bir qismi dərin relyef üsulunda, yəni daş üzərində dərinliyi cızmaqla yaranan təsvirlərdir.Təsvirlərin bir qismi isə qabarıq relyef üsulunda, yəni daş səthini cızmaqla təsviri qabartmaq yolu ilə işlənmişdir.

Bu təsvirlər mövzu baxımından olduqca müxtəlifdir. Əsasən insan, vəhşi öküz, maral, keçi, şir, ceyran, at, gur və s. təsvirlər çox vaxt təbii ölçüdə verilirdi.Burada həmçinin ov səhnələri, müxtəlif heyvanların vuruş meydanındakı təsvirləri, dəvə karvanları və s.çox real canlandırılmışdır.

Ən qədim qayaüstü təsvirlər arasında dərin relyef üslubunda işlənmiş, çiyinlərində kaman asılmış ayaqüstə və ya yarım oturmuş vəziyyətdə silueti çəkilmiş insan təsvirləri mövcuddur.

Tunc və dəmir dövrünə aid olan relyef nümunələri içərisində arxeoloji qazıntılar zamanı Minğəçevir, Qazax, Ağdam ərazisində tapılan gil möhürlər daha çox maraq doğurur. Müxtəlif ölçülərə malik olan belə möhürlərin formaları dördkünc, dairəvi və oval şəklində olurdu. Bişirilmiş gil lövhələr üzərində səma cisimlərini -günəş, svastika, aypara, ulduzlar və s. təsvir edirdilər. Belə möhürləri insanlar təbii rənglərə batıraraq, bədənlərinə vuraraq dini ayinlərin icrasında istifadə edirdilər. Arxeoloji qazıntılar zamanı belə gil möhürlər tunc və dəmir dövrünə aid edilən torpaq və sərdabə tipli qəbirlərdə aşkar edilmişdi. Belə fərziyyə mövcuddur ki, ölən insanın yanına qoyulan bu möhürlər o biri dünyada ona dini ayinləri icra etmək üçün gərək olmalı idi. Ölən insanın belə möhürlərlə basdırılması xüsusi hörmət əlaməti idi.

Zoomorf relyefli möhürlər arasında isə totemistik rəmz sayılan fiqurlar, o cümlədən xoruz, canavar, əfsanəvi quş və s. təsvirləri olan möhürlərə rast gəlirik.

Ucar rayonunun Bəhmən - Bərgüşad kəndi ərazisində, Qaratəpə adlanan yerdə aparılan arxeoloji qazıntılar zamanı küp qəbirindən dövrün relyef sənətini xarakterizə edən qliptika nümunəsi tapılmışdır.

Mingəçevir yaxınlığından Sudaqılandan tapılmış, V-VI əsrlərə aid edilən, simvolik təsvirlərlə bəzədilən böyük daş kapitel xüsusilə maraq doğurur. Kapitelin mərkəzində dərin relyef üsulunda işlənmiş simvolik "Həyat ağacı" və onun sağ və sol tərəflərində stilizə edilmiş tovuz quşları təsvir edilmişdir. Hər iki tovuz quşunun boğazlarında yellənən uzun şərf təsvir edilmişdir. Sasani incəsənətində belə yellənərək dalğalanan şərflər, hökmürəvanlıq və ilahilik simvolu hesab edilirdi. Kapitelin üst hissəsi alban yazı nümunələri ilə bəzədilmişdir.

Daş və kəc üzərində bəzəmək və onlarda oyma üsulu ilə naxışlar açıb insan, heyvan və başqa təsvirləri həkk etmək orta əsrlərdə dekorativ tətbiqi sənətimizin geniş yayılmış sahələrindən idi. Oyma bəzəklər əsas etibarı ilə memarlıq abidələrində və qəbir daşlarının üzərində tətbiq edilirdi. XII-XV əsrlərdə oyularaq bəzədilmiş daş və kəc abidələrini bədii xüsusiyyətlərinə görə iki böyük qrupa bölmək olar; stilizə edilmiş nəbati ornamentli oymalar və real səpgidə işlənmiş nəbati oymalar. Araşdırmalar göstərir ki, XII-XIV əsrlərdə daş və kəc üzərindəki oyulmuş bəzəklər daha çox həndəsi və stilizə edilmiş nəbati ornamentlərlə, XV əsrdə və sonralar daş və kəc işləri isə əsasən real səpgidə işlənmiş, nəbatat aləmindən götürülmüş ornamentlərlə bəzədilirdi. Onu da qeyd etmək lazımdır ki, oyma işlərinin tərtibatında istifadə edilən yazılarda onların bədii xüsusiyyətlərindən və dövrlərindən asılı olaraq müxtəlif üsullarında işlənirdi.

Daş üzərində oyma işlərinin ən böyük və maraqlı hissəsini nəbati ornamentlərlə bəzədilmiş əsərlər təşkil edir. Belə ilk oyma işləri sırasına XIII əsrə aid olan Bakıda dənizdən tapılmış "Bayıl qəsri" adlanan abidəni daxil etmək olar.Arxeoloqlarımız tərəfindən son 20 il ərzində Xəzərdən çıxarılmış 700-dən çox bədii daş qabartmaları vaxtı ilə quruda yer-

ləşən bu memarlıq abidəsinin bəzəkləridir. Tapıntılar içərisində memarın adını və binanın inşa tarixini göstərən daşlar da vardır. Memar yazıda özünü Əbdürrəşid oğlu Zeynəddin Şirvani adlandırır. Bundan başqa, burada bir sıra şəxslərin adlarını və s.yazıları da ("Mahmud əz Baku","Əfridun","Fəriburz","Nəqqaş") oxumaq olar.

Dərin oyma üsulu ilə bəzədilmiş Bayıl daşlarının bizim üçün maraqlı cəhəti ondan ibarətdir ki, burada yazılarla birlikdə canlıları təsvir edən çoxlu rəsmlər də vardır. Uzun illər Bayıl daşları üzərində elmi araşdırmalar aparmış qocaman arxeoloq İ.Cəfərzadə bu barelyeflərdə həkk edilən insan və heyvan fiqurlarının yalnız sırf bədii xarakter daşımayıb eyni zamanda həkk edilmiş hərflərin bir detalı olaraq praktiki mahiyyət daşıdığını da sübut etmişdir. Bayıl daşları üzərində çalışan alimlərimiz son illərdə burada anfas şəkildə 12-yə qədər insan başı təsvirli oymalar aşkar etmişlər.Onların fikrincə, bu təsvirlər o dövrlərdə tanınmış şəxslərin portretləri olmuşdur.

Kəc üzərində iş əsas iki əməliyyat əsasında görülürdü. İlk növbədə sənətkar kəc hələ qurumamış (yumşaq ikən) onun üzərində iti bir alətlə istədiyi rəsmi çəkir, qalınlığını,dərinliyini verir. Kəc quruduqdan sonra isə hazır rəsmini və ornamentin xırdalıqları (detalları) üzərində işləyərək lazımi əlavələr edir. Bu əməliyyat öz zərifliyi ilə daş üzərində aparılan işdən daha çox zərgərlikdə tətbiq olunan döymə və şəbəkə işlərini xatırladır.

Məzar daşları üzərində bundan əlavə bir çox simvolik mahiyyət daşıyan rəsmlərə də rast gəlinir.Bunlardan: islamı təmsil edən ay - ulduz, günəşi bildirən svastika və ya zolaqlı dairə və s. naxışları göstərmək olar. Bundan əlavə məzar üstü daşlarda ölən adamın fəlsəfi kəlamları, görkəmli şair və aşıqların sətirləri, dua, şifahi ədəbiyyatdan gəlmə şerlər də yazılırdı. Epitafiua (məzar kitabəsi) şəklində geniş yayılmış belə yazılar görkəmli şəxslərin baş daşlarında təkrar olunur.

Azərbaycanda daşdan düzəldilmiş qoç fiqurları xüsusilə geniş yayılmışdır.Buna Azərbaycanın ən ucqar cənub sərhədlərindən tutmuş, şimal - qərbədək bir çox yerlərdə rast gəlirik. Həmçinin Ermənistan və Gürcüstanda azərbaycanlıların yaşadığı kəndlərdə də təsadüf edilir. Daşdan yonulmuş qoç fiqurlarının azərbaycanlıların yaşadıqları ərazidə belə geniş yayılması, söz yox ki, təsadüfi deyildir. Dadlı ətinə,məişətdə müxtəlif ləvazımat və geyim məqsədilə istifadə edilən əvəzsiz dərisinə,gözəl xalçaların ipi olan yununa görə qoç çox qədimlərdən ulu babalarımız üçün bolluq və qələbə simvoluna çevrilmişdir.

Bu günədək kəndlərimizdə çəpər dirəklərinə, eyvan sütunlarına bərəkət və qüvvət əlaməti kimi qoç başının bərkidilməsi,bəzi rayon və kəndlərimizdə isə (xüsusilə Lənkəran, Quba, Qusar və s. hətta sütunun yuxarı hissəsinə (kapitelə) qoç başı geydirilməsi, onun el arasında nə qədər geniş yayıldığını göstərir. Lakin qoçu bir totem kimi təmsil edən təsvirlər içərisində ən qiymətlisi daşdan yonulmuş qoç fiqurlarıdır.

Daş qoç fiqurlarımız haqda ilk məlumatlara hələ XIX əsrin əvvəllərində rast gəlirik. 1834-cü ildə Azərbaycanda olmuş fransız səyyahı Dyubua-de Monpere Qarabağda çoxlu daş heyvan fiqurları gördüyünü və yerli əhalinin onlara xüsusi hörmət bəslədiyini qeyd etmişdir.

Daş qoç fiqurlarımız haqda maraqlı qeydlərə rus alimi V.M. Sısoyevin yazılarında rast gəlirik. 1926 - 1927-ci illərdə Azərbaycanın Naxçıvan, Ordubad, Laçın və s. rayonlarında olmuş V.M.Sısoyev yazır ki, yerli əhali burada tez-tez təsadüf olunan daş qoç fiqurlarını müqəddəs sayaraq ona sitayiş edir, hətta bu fiqurları bəzən qədim qəbiristanlıq xərabələrində, dağlardan və s. yerlərdən taparaq hörmət əlaməti olaraq öz qohumlarının qəbri üstə qoyurlar."Naxçıvanın şərqində köhnə qəbiristanlıq yaxınlığında qırmızı daşdan yonulmuş, uzunluğu 1m.50 sm., eni 40 sm. olan qıvrım buynuzlu bir qoç fiquru gördüm, burada uşaqları olmayan qadınlar arasında belə bir şayiə yayılmışdır ki, kim bu qoçun ayaqları arasından sürünərək o biri tərəfə keçərsə, onun mütləq uşağı olacaqdır".

Azərbaycan relyef sənətinin növbəti inkişaf mərhələsi XX əsrin ortalarına təsadüf edir. Bu Azərbaycanda professional heykəltəraşlığının formalaşması ilə bağlı olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan heykəltəraşlıq sənətinin dirçəlməsində bir sıra rus sənətkarları çalışmışlar, onların arasında D.Erzya, Tripolskaya kimi görkəmli tişə ustalarının adlarını çəkmək yerinə düşərdi. İlk milli professional heykəltəraşlarımız sırasında Z. Məmmədovanın, C.Qaryağdının, F.Əbdürrəhmanovun adları çəkilməlidir. Bu dövrdə relyef sənətinə öz yaradıcılığında böyük yer verən sənətkarlardan biri Calal Qaryağdı olmuşdur.

Heykəltəraşlıq sənətinin mühüm sahələrindən olan relyef sənəti Azərbaycanda qədim köklərə və zəngin ənənələrə malikdir.Müxtəlif texnoloji üsullardan və materiallardan istifadə edərək bizim əcdadlarımız bu sahədə zəngin irs yaratmış və saysız-hesabsız görkəmli sənət əsərlərini gələcək nəsillər üçün bəxş etmişlər.

***Azad Zeynalov,***
***heykəltəraş***